# THE FRAMEWORK OF THE GREEN PROTECTION AS ONE OF THE MAIN DIRECTIONS OF ENVIRONMENTAL EDUCATION OF PRE-SCHOOL CHILDREN

**Vasila Bayramova**

Baku city, educator-teacher of nursery-kindergarten number 198
E-mail: vasila.bayramova.1971@mail.ru
https://orcid.org/0009-0008-8586-8517

**Abstract.** In connection with the declaration of 2024 as the "Year of Solidarity for the Green World" in our country, the application of the "Raise me in a green world" project organized by the educator-teacher Vasila Bayramova at nursery-kindergarten No. 198 for the development of green protection among preschool children is described in the article. is spoken. At the same time, the main directions and application rules of this project, which is joined by the nursery-kindergarten named after M.A. Sabir of Shamakhi city and the nursery-kindergarten No. 17 of Lankaran city, are reflected in detail in the article. In addition, it is specially emphasized that other pre-school educational institutions, taking advantage of the purpose of this project, to carry out network activities, as well as cooperation with parents in this direction, will have a significant impact on the environmental education of children and the efficiency of the work carried out in the direction of protecting greenery. It should be noted that educators-teachers, after getting to know the organizational structure of the project, apply it in their work, and educate parents about it, serve to develop children's love and care for nature.

**Keywords:** preschool child, preschool education, kindergarten, educator-teacher, child, parent, environmental education, green year, project.

**DOI:** 10.30546/2709-2488.2.2024.081.
**To cite this article:** Bayramova V. (2024). The framework of the green protection as one of the main directions of environmental education of preschool children. *Journal of Preschool and Primary Education*, Vol. 247, Issue II, pp. 81-89.
**Article history:** received – 25.04.2024; accepted – 22.05.2024.

# YAŞILLIĞIN QORUNMASI MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN EKOLOJİ TƏRBİYƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

**Vəsilə Bayramova**

Bakı şəhəri, 198 saylı körpələr evi-uşaq
bağçasının tərbiyəçi-müəllimi
E-mail: vasila.bayramova.1971@mail.ru
https://orcid.org/0009-0008-8586-8517

**Annotasiya.** Məqalədə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar Bakı şəhəri 198 saylı körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi Vəsilə Bayramovanın təşəbbüsü ilə həyata keçirilən “Məni yaşıl dünyada böyüt” layihəsi ətraflı şəkildə təhlil olunur. Layihənin həyata keçirilməsi məktəbəqədər yaşlı uşaqlarda ekoloji tərbiyənin inkişaf etdirilməsi məqsədi daşıyır. Şamaxı şəhər M.Ə.Sabir adına körpələr evi-uşaq bağçası və Lənkəran şəhər 17 saylı körpələr evi-uşaq bağçasının da qoşulduğu bu layihənin əsas istiqamətləri və onun tətbiqi qaydaları məqalədə ətraflı şəkildə işıqlandırılır. Tərbiyəçi-müəllimlərin layihənin istiqamətləri ilə tanış olaraq onu tətbiq etmələri və bununla bağlı valideynləri maarifləndirmələri uşaqlarda təbiətə sevgi və qayğı hisslərinin formalaşmasına xidmət edir. Məqalədə məktəbəqədər təhsil müəssisələrinin də bu layihənin məqsədindən yararlanmağın uşaqların ekoloji tərbiyəsinə və yaşıllığın qorunması istiqamətində aparılan işin səmərəliliyinə əhəmiyyətli təsir göstərəcəyi vurğulanır.

**Açar sözlər:** məktəbəqədər yaşlı uşaq, məktəbəqədər təhsil, tərbiyəçi-müəllim, uşaq, valideyn, ekoloji tərbiyə, layihə.

**DOI:** 10.30546/2709-2488.2.2024.081.
**Məqaləyə istinad:** Bayramova V. (2024). Yaşıllığın qorunması məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsinin əsas istiqamətlərindən biri kimi. «*Məktəbəqədər və ibtidai təhsil*», № 2 (247), səh. 81-89.
**Məqalə tarixçəsi:** göndərilib – 25.04.2024; qəbul edilib – 22.05.2024.

## Giriş / Introduction

Ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə əlaqədar 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Sərəncama əsasən, 2030-cu ilə qədərki sosial-iqtisadi inkişafa dair beş milli prioritetdən biri kimi Azərbaycan "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Hazırda işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ölçüyəgəlməz işlər "Ağıllı şəhər", "Ağıllı kənd", alternativ enerji layihələri həyata keçirilir. Sözsüz ki, 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizin bu istiqamətdə apardığı işlərə daha da təkan verəcək[1] [Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 25 dekabr, 2023].

Sözügedən sərəncam ölkəmizin təhsil sistemi qarşısında da müvafiq vəzifələr qoyur. Tərbiyəçi-müəllim kimi çalışdığım Sabunçu rayonu 198 saylı körpələr evi-uşaq bağçasında beşyaşlı uşaqların dili ilə sərəncama müvafiq olaraq "Məni yaşıl dünyada böyüt" adlı yeddi istiqamətdən ibarət layihə hazırlayaraq tətbiqinə başladım. Layihəni həyata keçirməkdə əsas məqsəd tullantı materiallardan istifadəyə yararlı olan əşyalar hazırlamağın, boş torpaq sahələrində meyvə agacları əkməyin, vitaminlərlə zəngin meyvələrin insana faydalarının, həyat üçün əhəmiyyətli olan suya qənaət etməyin və s. uşaqlara aşılanmasıdır.

Layihə pedaqoji baxımdan məktəbəqədər yaşlı uşaqların ekoloji dünyagörüşünü, təbiətə münasibətdə əxlaqi yanaşma mövqeyini, təbii sərvətlərin öyrənilməsi vasitəsilə idraki səriştələrinin formalaşmasını, öyrənmə və tədqiqatçılıq bacarıqlarının yeni formalarının hazırlanmasını, uşaqların ekoloji yönümlü fəaliyyətə cəlb edilməsini, bilik axtarışlarının müxtəlif forma və metodlarını, praktik bacarıqlarını, təşkilatçılıq qabiliyyətlərini mənimsəmələrini, davamlı ekoloji tərbiyə işinin aparılmasını stimullaşdırır. Ən əsası, məktəbəqədər dövrdə tərbiyəçi-müəllim – uşaq – valideyn əməkdaşlığının səmərəli təşkilənə böyük töhfədir.

[1] https://president.az/az/articles/view/62737

## Əsas hissə / Main part

Ekologiyanın qorunması cəmiyyətin qarşısında duran qlobal problemlərdəndir. Bununla bağlı Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində qeyd edilir: "Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz"[2] ["Azərbaycan" qəzeti, № 66, 2009]. Ekologiya yunan sözü olub, ("*oykos"– ev*, yaşayış məskəni, "*logiya" elm*) canlı və cansız təbiətin, xarici mühit amillərinin qarşılıqlı münasibətini, onların yaşayış tərzində, inkişafında, çoxalmasında həmin amillərin rolunu, təbiətin (hava, su, torpaq, bitki və heyvanlar aləmi, faydalı qazıntılar və s.) mühafizəsini, təbii sərvətlərdən istifadə olunmasının qanunauyğunluqlarını və s. öyrənir[3] [https://az.wikipedia.org/wiki/Ekologiya].

Ekologiya ilə bağlı əksər sənədlərdə ətraf mühitin qorunmasının əhəmiyyəti və ekoloji tərbiyə məsələlərinin məktəbəqədər dövrdən başlayaraq həyata keçirilməsinin vacibliyi öz əksini tapır[4] [Həsənov A., 2011].

Məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsini lazımi səviyyədə qurmaq üçün bir sıra tələblərə və prinsiplərə əməl edilməlidir:

1. Ekoloji tərbiyəyə uşaq şəxsiyyətinin hərtərəfli inkişafının tərkib hissəsi kimi baxılmalıdır.
2. Ekoloji tərbiyədə məktəbəqədər yaşlı uşaqların yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.
3. Ekoloji tərbiyə işində sistemlilik və ardıcıllıq gözlənilməlidir.
4. Ekoloji tərbiyə hərtərəfli aparılmalıdır. Uşaqlarda təbiətə sadə şəkildə də olsa münasibət formalaşdırılmalı, vətənpərvərlik hissinin inkişafına təsir göstərilməlidir[5] [Məmmədova X., 2009]. Məktəbəqədər təhsil müəssisələrində bu prinsiplər əsasında aparılan iş zamanı hələ kiçik yaşlardan başlayaraq uşaqlara canlı aləmlə – ağaclar, güllər, çiçəklər, quşlar və s. ilə tanışlıq, onların adlarının, xüsusiyyətlərinin söylənilməsi, insanların və təbiətdə mövcud olan digər canlıların var olması üçün suyun və havanın təmizliyinin əhəmiyyətinin izah edilməsi uşaqlarda canlı və cansız təbiətə qarşı sevgi və qayğı hissinin formalaşmasının əsası qoyulur. Bunonla bağlı məktəbəqədər təhsil proqramının (kurikulumun)

---

[2] "Azərbaycan" qəzeti, 31 mart 2009-cu il, № 66, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 3, maddə 158

[3] https://az.wikipedia.org/wiki/Ekologiya

[4] Həsənov H. Məktəbəqədər pedaqogika. 2011.

[5] Məmmədova X. Uşaq bağçalarında ekoloji tərbiyə. Metodik vəsait. Bakı, Çaşıoğlu-Multimedia, 2009.

idrakın inkişafı sahəsinin 1–6 yaş dövrlərini əhatə edən 2.1.3., 2.1.4. və 2.1.5. alt standartlarında hər bir yaş qrupuna uyğun olaraq uşaqların canlı və cansız aləmin obyektlərini tanıması, onlarla düzgün davranması, qoruması, heyvan və bitkilərə qulluq etmək və s. bacarıqlarının formalaşması tələb olaraq qarşıya qoyulur [Məktəbəqədər təhsil proqramı (kurikulum)., 2022] Təbii ki, bu standartların reallaşaraq, uşaqların bacarıqlarında öz əksini tapması tərbiyəçi-müəllimlərin bu istiqamətdə işi necə təşkil etməsi ilə və tətbiq etdiyi strategiyalarla bağlıdır. Bu baxımdan, Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasından və bu istiqamətdə aparılan işlərdən yararlanaraq, hazırladığım "Məni yaşıl dünyada böyüt" adlı 7 istiqamətli layihənin uşaqların iştirakı ilə tətbiqinə başladım. Layihə aşağıdakı istiqamətlərdə həyata keçirilir:




Layihənin **"Hədiyyə hazırlayaq"** adlanan birinci istiqamətində aparılan işlər bağçamızın məktəbəhazırlıq qrupunun uşaqları, eyni zamanda Şamaxı şəhər M.Ə.Sabir adına körpələr evi-uşaq bağçası və Lənkəran şəhər 17 saylı körpələr evi-uşaq bağçasının uşaqları ilə həyata keçirildi. Bu istiqamətin tətbiqi zamanı uşaqlar evdə istifadəyə yararsız olan əşyalardan yararlı əşyaların hazırlanması işində valideynləri ilə birgə iştirak etdilər.

Fikrimcə, uşaq nə qədər tullantı görərsə, əşyalardan da o qədər yanlış istifadə edər (cırar, yazar, sındırar, əzər və s.). Ona görə layihənin bu mərhələsində uşaqların anaları ilə birgə evdə olan köhnəlmiş, istifadəyə yararsız olan əşyalara gözəllik qataraq, onları yeniləyib "hədiyyə" formasında hazırlamalarına nail oldum. Uşaqlardan bəziləri evdə istifadə olunmayan köhnə toxunmuş köynəyi valideynləri ilə birgə söküb çox gözəl şərf və çanta toxudular.

Digər uşaqlar isə sınmış şüşə bankalardan güldan, plastik butulkalardan isə müxtəlif maraqlı əl işləri hazırladılar. Müəssisəmizin məktəbəhazırlıq qrupunun uşaqları kollektiv olaraq bu mərhələdə iştirak etdilər. Sonda isə istifadəyə yararsız tullantılardan hazırlanmış əşyalar layihəyə qoşulmuş uşaqlara hədiyyə olaraq

paylanıldı. Bu, eyni zamanda layihə iştirakçıları olan uşaqlar arasında əməkdaşlığa və dostluğa zəmin yaratdı.

Layihənin **"Novruz səmənisi"** istiqamətində uşaqlarda canlı təbiətə, onun nemətlərinə qarşı düzgün davranmaq, qayğı göstərmək, onlardan düzgün istifadə etmək, insanla təbiətin qarşılıqlı əlaqəsi, ekoloji biliklərin ardıcıl şəkildə öyrənilməsi, bu işin valideynlərin iştirakı ilə qarşılıqlı əməkdaşlıq şəraitində təşkili, əkin sahələrində taxılın yetişdirilməsi, buğdanın şumlanmış torpağa səpilməsi, vaxtında suvarılması, mütəmadi olaraq alaqdan təmizlənməsi, Novruz bayramının rəmzi olan səməninin cücərdilməsi və ona qulluq haqqında sadə məlumatların verilməsi və s. uşaqların ekoloji tərbiyəsinin inkişafını təmin edir.

Layihənin **"Meyvə ağacları əkək"** istiqamətinin tətbiqi prosesində uşaqlarla həyətyanı sahəni gəzərək müşahidə apardıq, sonra uşaqlara boş sahələrdə meyvə ağacları əkməyi təklif etdim. Əvvəlcə, uşaqlar öz sevdikləri meyvələrin adlarını söylədilər. Sonra isə yaşıllığı artırmaq məqsədi ilə uşaqlar və valideynlərin iştirakı ilə birlikdə həyatyanı sahədə meyvə ağacları əkdik. Ağacların əkilməsinin əhəmiyyəti, faydaları haqqında uşaqlarla söhbətlər apararaq, onlara yaşıllığı qorumağı tövsiyə etdim. Uşaqlarla birgə hər həftə ağacları sulayıb, onlara qulluq edirik və bu işə digər qrup uşaqlarının qoşulmasına da şərait yaradırıq.

Layihənin **"Meyvə salatı hazırlayaq"** istiqamətində müəssisəmizin məktəbəhazırlıq qrupunun uşaqları və yarışmaya onlayn qoşulan Şamaxı şəhər M.Ə. Sabir adına körpələr evi-uşaq bağçası, Lənkəran şəhər 17 saylı körpələr evi-uşaq bağçasının uşaqları meyvələrdən müxtəlif formalı salatlar hazırladılar. Vitaminlərlə zəngin bu meyvələrin insan orqanizminə faydaları, hansı meyvələrin hansı bölgədə yetişməsi, hansı bölgənin iqlim şəraitinin hansı meyvə və tərəvəzlərin yetişməsində əlverişli olması, suyun faydaları və s. haqqında uşaqlara məlumatlar verildi. Bununla yanaşı, onlayn görüşdə uşaqlar meyvələr haqqında bu kimi məlumatları bir-biriləri ilə bölüşdülər.

Layihənin "**Təmizlik-abadlıq"** istiqamətində müəssisənin həyətyanı sahəsində təmizlik, abadlıq işi aparmaqla təmizliyin insan sağlamlığında, ekologiyanın qorunmasındakı əhəmiyyəti barədə uşaqlara məlumatlar verildi. Bu mərhələdə uşaqlar həyətyanı sahəni təmizlədilər, ağacların diblərini yumşaltdılar, onların gövdələrini əhənglədilər, hasarları rənglədilər, quşların, pişiklərin yemlənməsi üçün yer düzəltdilər. Layihənin bu mərhələsində də uşaqların böyük həvəs və sevinclə istirak etmələri müşahidə olundu.

Layihənin **"Su olmasa, həyat olmaz"** istiqamətində iştirakçılara mövzuyla bağlı öz fikirlərini bildirmələri təklif edildi. Bu mərhələdə uşaqların sudan düzgün istifadə və suya qənaət etmənin həyat üçün əhəmiyyəti ilə bağlı yaradıcı fikirləri dinlənildi.

Layihənin "**Ekoparka ekskursiya"** istiqamətində ekoparka ekskursiya təşkil

şində nələr əldə etdiyimizi müzakirə etdik.

Göründüyü kimi, layihənin bütün istiqamətləri ekologiyanın qorunması, tullantılardan təmizlənməsi, təbiətdəki yararsız şam qozalarından, yarpaqlardan, balıqqulağından, kartondan və s. materiallardan istifadəyə yararlı əşyaların hazırlanması, bağçanın həyətyanı sahəsinin xırda daşlardan təmizlənməsi, yaşıllığın artırılması, ağac əkilməsi, təbiət qoynuna ekskursiyaların təşkili və s. məktəbəqədər yaşlı uşaqlarda bilik və bacarıqların formalaşdırılmasına yönəldilmişdir.

Uşaqlar layihənin bütün istiqamətləri üzrə icra etdikləri işlərlə bağlı fikirlərini ifadə edərkən onların məmnunluqları, sevinc hissləri aydın görünürdü.

"Məni yaşıl dünyada böyüt" adlı bu layihə uşaqların ekoloji tərbiyəsini inkişaf etdirməklə respublikanın digər məktəbəqədər təhsil müəssisələri ilə bu istiqamətdə əməkdaşlığı genişləndirməyə və həmin müəssisələrdəki uşaqların da ekoloji bilik və bacarıqlara yiyələnmələrinə zəmin yaradır.

## Nəticə / Conclusion

Beləliklə, yaşıllığın qorunmasının insan sağlamlığındakı rolunun, əhəmiyyətinin uşaqların ekoloji tərbiyəsinə böyük təsir göstərdiyini nəzərə alan hər bir tərbiyəçi-müəllim bu prosesə həssaslıqla yanaşmalı, bu istiqamətdə təşkil edəcəyi praktik işi layihənin yuxarıda sadalanan istiqamətlərinə əsasən həyata keçirməlidir. Çünki cəmiyyətin sağlam həyat tərzinin əsaslarından olan ekoloji tərbiyənin sistemli şəkildə, eyni zamanda məqalədə bəhs olunan 7 istiqamət üzrə təşkili bu işin əhatəliliyinə xidmət edir. Bu isə, ilk növbədə, yaşıllığın artırılmasının təmiz hava istehsalçısı olmasını, bütünlüklə, yaşıllığın, suyun, havanın çirklənmədən qorunmasını, 5–6 yaşlı uşaqların ekoloji cəhətdən təmiz mühitdə yaşamağın faydaları haqqında biliklərə sistemli şəkildə yiyələnmələrini təmin edir. Bununla bağlı qeyd etmək istərdim ki, layihənin I mərhələsinin tətbiqində uşaqların bu prosesdə çox həvəslə və fəal iştirak etmələrinin müşahidə olunması onların təbiətə məhəbbət və qayğı ilə yanaşmalarının göstəricisi idi. Eyni zamanda, layihəyə hazırlıq zamanı valideynlərin də bu prosesdə yaxından iştirak edərək uşaqları dəstəkləmələri ekoloji tərbiyənin inkişafı baxımından əməkdaşlığımızın əhəmiyyətli nəticəsi olaraq özünü göstərdi.

Uşaqların ekoloji tərbiyəsinin formalaşdırılması və inkişafı sağlam gələcəyin təminatçısı olmaqla, onların özlərinin və gələcək nəsillərin sağlam mühitdə yaşaması məqsədinə xidmət edir. Layihənin əsas məqsədi də 5–6 yaşlı uşaqların həm sanitar-gigiyenik, həm qidalanma, həm də oksigenlə zəngin mühitdə yaşamağın sağlamlığımız üçün nə dərəcədə əhəmiyyətli olduğuna dair elementar bilik və bacarıqlara yiyələnərək, gələcəkdə ölkəmizdə ekologiyanın qorunmasına böyük tövfələr verəcəklərinə şərait yaratmaqdır. Bu istiqamətdə əsas vəzifə

tərbiyəçi-müəllim və valideyn üzərinə düşür. Bu baxımdan, məktəbəqədər təhsil müəssisələrinin pedaqoji heyəti layihənin inkanlarından yararlanmalı, işin təşkili prosesində valideynlərlə əməkdaşlıq etməli və uşaqların ekoloji tərbiyəsinin inkişafına nail olmağa çalışmalıdırlar.

Sonda qeyd etmək istərdim ki, layihəyə göstərdiyi dəstəyə görə çalışdığım Sabunçu rayonu 198 saylı körpələr evi-uşaq bağçasının rəhbəri Elyanə Əzimovaya və müəssisəmizin məktəbəhazırlıq qrupunun tərbiyəçi-müəllimi Günay Məmmədovaya, eyni zamanda, layihəyə qoşulmuş Şamaxı şəhər M.Ə.Sabir adına körpələr evi-uşaq bağçasının rəhbəri Sevinc Adıgözəlovaya, Lənkəran şəhər 17 saylı körpələr evi-uşaq bağçasının rəhbəri Səbirə Fərzəliyevaya və hər iki müəssisənin pedaqoji heyətinə, valideynlərə, bütünlüklə, kollektivə dərin təşəkkürümü bildirirəm!

**Məqalənin aktuallığı.** 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması uşaqların ekoloji tərbiyəsinin inkişafı baxımından hazırda bu istiqamətdə tərbiyəçi-müəllimlərin də qarşısına xüsusi öhdəliklər qoyur. Bu baxımdan, tətbiq etdiyimiz "Məni yaşıl dünyada böyüt" adlı 7 istiqamətli layihənin məzmununa əsasən, ekologiyanın qorunması, yaşıllığın artırılması, tullantı materiallarından istifadəyə yararlı olan əşyaların hazırlanması həm təbiətin qorunması, həm də ondan uyğun şəkildə yararlanmağımız baxımından aktual problemdir.

**Məqalənin elmi yeniliyi** uşaqların layihənin praktik iştirakçısı olaraq ekologiyanın qorunması haqqında bilik və bacarıqlara asanlıqla yiyələnmələrində, eyni zamanda, təbiətdə müxtəlif tullantı materiallarından məşğələlərdə istifadəyə yararlı olan əşyalar hazırlamalarında özünü göstərir. Layihənin tətbiqi məktəbəqədər təhsil müəssisələrinin bu istiqamətdə bir-biri ilə, eyni zamanda valideynlərlə sıx əməkdaşlıq fəaliyyətinə şərait yaradır.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalədən məktəbəqədər təhsil üzrə mütəxəssislər, metodistlər, tərbiyəçi-müəllimlər, bu sahədə təhsil alan tələbələr yararlana bilərlər.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2009). Bakı, 25 dekabr, 2023.
2. Azərbaycan Respublikası Mərkəzi Seçki (Referendum) Komissiyasının Qərarı ("Azərbaycan" qəzeti, 31 mart 2009-cu il, № 66, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 3, maddə 158) ilə 39-cu maddəyə yeni məzmunda III və IV hissələr əlavə edilmişdir.

3. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulum). (2022). Bakı, 54 s.
4. Həsənov A. (2011). Məktəbəqədər pedaqogika. Bakı, "Nasir" , 374 s.
5. Məmmədova X. (2009). Uşaq bağçalarında ekoloji tərbiyə (metodik vəsait). Bakı, "Çaşıoğlu-Multimedia".
6. https://az.wikipedia.org/wiki/Ekologiya